

# Şirvan ellərinin folklor mücahidi - Seyfəddin Qəniyev

***Nizami Tağısoy***

**Deyirlər hər kəsin taleyi onun alın yazısıdır. Hərə Allah və Tale tərəfindən ona verilmiş ömür payını yaşayır. Ya yaşayıb ömrünü, bütün şüurlu həyatını xalqına, elinə-obasına, onun təhsilinə, elminə, biliyinə, folkloruna, aşıq yaradıcılığına, regionunun etnoqrafik landşaftının, etnomədəni mənzərəsinin öyrənilməsinə, onların təhlilinə, tərənnümünə, təqdirinə, ya da ki, "səhər naxıra, axşam axura" prinsipi ilə heç bir səmərəli işlə məşğul olmayıb, öz qarnının hayında olur. Haqqında söhbət açmaq istədiyim insanın ömür payı maraqlı, günü-güzaranı işıqlı, yaradıcılığısa çoxlarının təfəkkürünə nur çiləyib, onu rövnəqləndirən üfüqün parıltısı kimi hərarətli və qəlbə yatan olub.**

Artıq o, Azərbaycanda (həm də onun hüdudlarından kənarda varsaq, ozan, akın, aşıq, baxşı, baksı, jirşi, jırau, şeşen sənətlərinə dəyər verilən, urvatlı tutulan ellərdə) yetərincə məşhur isimlərdəndir. Folklorumuzun, etnoqrafiyamızın, aşıq yaradıcılığımızın, bədii söz sənətimizin toplanıb, araşdırılıb, sistemləşdirilib, nəşr edilməsində xüsusi zəhmət sərf etmiş Seyfəddin Qəniyev filologiya elmləri doktoru, tədqiqatçı-alim kimi bütün ömrünü Azərbaycanımızın elm-bilik, fəlsəfə-idrak, regionu olan, dünya ədəbiyyatının inkişafında əvəzsiz yeri və rolu olan Şamaxıdan çıxmış söz sahiblərinin çuxasından bu tədqiqatçının indiyədək etdiklərinin hamısını sadalamağa bəlkə də qalın kitab səhifələri belə bəs etməzdi. Ayrı-ayrı məqalələrin sayını buraya əlavə etmədən, onun bu günə qədər monoqrafik araşdırmalar şəklində ortaya qoyudqlarının sayı 60-ı haqlamaqdadır. Folklor örnəkləri, aşıq yaradıcılığı nümunələrini toplamaq Seyfəddin Qəniyev özünün ziyalılıq missiyası, tədqiqatçılıq taleyi ilə elə üzvi şəkildə birləşdirib, elə bir araya gətirib ki, belə məhsuldarlığı bəlkə də Azərbaycanda başqa bir alimin ortaya qoyması mümkün deyildir. Filologiya elmləri doktoru, folklorşünas-etnoqraf kimi Seyfəddin Qəniyev folklor, aşıq yaradıcılığı nümunələri ilə məşğul olur, onları saf-çürük edir, AMEA-nın Folklor İnstitutunda aparıcı elmi işçi kimi titanik işlər həyata keçirir. O, həm də Azərbaycan Yazıçılar Birliyi Şamaxı bölməsinin sədri, Azərbaycan Aşıqlar Birliyinin üzvü kimi ictimai işlərlə də yaxından və sərištəli məşğul olur.

Seyfəddin Qəniyevin "Şirvan aşıqları", "Şirvan folklor antologiyası", "Şirvanın qadın şairləri", "Şirvan folklor mühiti", "XX əsr Şirvan aşıqları", "Şirvanlı aşıq Soltan ocağı", "Şirvanın 565 şairi", "Mən Abbasam Cəyirlidi məkanım", "Şirvanlı Aşıq Mirzə Bilal", "Şirvanlı Aşıq Xanmuşa" və s. kimi kitabları alim-tədiqiqatçının ölçüyə gəlməz fəaliyyetinin konkret nəticəsi kimi ortada dayanmaqdadır.

Seyfəddin Qəniyevin bütün yaradıcılıq, toplayıcılıq, araşdırıcılıq, naşirçilik fəaliyyəti onun doğulub boya-başa çatdığı Şamaxı, daha geniş mənada Şirvanla bağlıdır. Şirvan lap qədim zamanlardan elm mərkəzi olduğunu dünyaya çoxdan sübut etmişdir. Seyfəddin müəllim isə həmin ənənəni, babaların, ulu babaların, əcdadların yolunu şərəf və məsuliyyətlə davam etdirməkdədir.

Şirvan bədii-estetik təfəkkür mərkəzinin XX əsrin ikinci yarısı və XXI əsrin ilk onilliyində yaşamış öncüllərindən biri xalq yazıçısı, filologiya elmləri doktoru, professor Əzizə Cəfərzadə qürur hissi ilə qeyd edirdi ki, "... Artıq cəsarətlə demək olar ki, sənin yaradıcılığının timsalında (Seyfəddin müəllim nəzərdə tutulur - N.T) Şirvanın hüquqi ə tutumlu sahibi - araşdırıcısı yetişib və bu ulu diyarın tarixi, aşıq və ədəbi yaradıcılığı - bütövlükdə folkloru öyrənilir... əsərini çox bəyəndim. Çox ciddi, sanballı, tutumlu əsərdir".

Əzizə xanım Cəfərzadə istedadlı yazıçı və orijinal filoloq-alim kimi Seyfəddin Qəniyevin apardığı fəaliyyətə heç də elə-belə qiymət vermirdi. Onun Seyfəddin müəllimin əsərlərinin məzmun və ideyasından yaxşı xəbəri vardı. Filologiya elməri doktoru, professor Xeyrulla Məmmədovun onun "Şirvan folklor mühiti" monoqrafiyasının ən uğurlu, kamil əsərlərdən olub, folklorşünaslığımıza töhfə kimi dəyərləndirməsi də təsadüfi hesab edilməməlidir. Yaxud Seyfəddin müəllimin "Şirvanın 350 şairi və doktorluq dissertasiyasının hər fəslini ayrı-ayrı namizədlik dissertasiyaları səviyyəsində dəyərləndirən akademik Bəkir Nəbiyevin incə müşahidələri də onun haqqında çox şeylər deyir. Folklorşünas professor Qara Namazovun isə maraqlı bir müqayisəsi bizi sözün həqiqi mənasında Seyfəddin müəllimin böyük tədqiqatçı-alim olduğuna daha dərindən inandırmaqdadır. Professor Q.Namazov söyləyir ki, "Seyfəddin müəllim böyük folklorşünas-alim Hümmətin Gəncəbasarda gördüyü işi Şirvan torpağında daha inadla həyata keçirir...", AMEA-nın müxbir üzvü, prof. Azad Nəbiyev Seyfəddin Qəniyevdən danışanda qeyd etmişdir ki, "o, biz folklorşünaslardan fərqli olaraq... Şirvan folklor mühiti ilə bağlı daha çox, daha ciddi və daha mükəmməl tədqiqatlar aparmış, onlarla dəyərli əsərlər yazmışdır...". Filologiya elmləri doktoru, professor Abbas Hacıyev isə Seyfəddin müəllimin təqdir olunacaq keyfiyyətlərindən danışarkən demişdi ki, "... Seyfəddin Qəniyev Şirvan ədəbi mühitinin yetirməsidir... bir vətəndaş, ziyalı,alim, müəllim kimi də məhz Şirvan torpağında formalaşıb. Doğma yurda bağlılıq, Şirvanın təbiəti, folkloru, ədəbi mühiti onun şəxsiyyətini formalaşdırdığı kimi, elmi yaradıcılığının qayəsini təşkil edib... Seyfəddinin elmi yaradıcılığının özünəməxsusluğu bundadır ki, o, həm folkloru, həm də ədəbiyyatı eyni peşəkarlıqla tədqiq edir... folklorun tədqiqi ilə yanaşı, xalq şairlərinin unudulmuş əsərlərinin toplanması və nəşri ilə də şövqlə məşğul olur". Respublikanın xalq artisti Alim Qasımov isə onu cəfakeş ziyalı olması ilə yanaşı, həm də "Şirvanın dərvişi" adlandırmışdı.

Seyfəddin müəllim haqqında bu söylənilənlər onu şəxsiyyəti ilə bağlı epitetlər yox, onun tədqiqatçılıq məharətinin, vücudunun yaradıcı mahiyyətinin özüdür. Buna görə də onu "Azərbaycan folklorşünaslığının Şirvan səhifəsi" (prof. Cəlal Qasımov), "Arxiv və sahə folklorşünaslığının canlı nümayəndəsi" (dos. Ağaverdi Xəlilov), "Ziyalı fədakarlığının mücəssəməsi" (şair-publisist Əli Rza Xələfli), "Şirvanın folklor xəzinədarı" (prof. İslam Sadıq), "Şirvan folklorunun təəssübkeşi" (Qobustan Rayon Təhsil şöbəsinin müdiri Füzuli Gülalıyev), "Uzun ömrü kitablarına yazılmış adam" (filologiya üzrə fəlsəfə doktoru İlhamə Qəsəbova), "Beytüs-səta" ocağının oçaqçısı" (filologiya elmləri doktoru Baba Babayev), "Şirvanın yanar şamı" (Folklor İnstitutunun əməkdaşı maşallah Xudabəyli), "Şirvan aşiqi" (yazıçı Heydər Ələddinoğlu) və i. a. və s. kimi dəyərləndirənlərin müşahidələri də kifayət qədər diqqət çəkəndir.

Azərbaycan ədəbiyyatşünaslığında müstəqil mövqeləri olan ziyalılarımızın fikirlərindən iqtibaslar gətirdiyimiz alim, tədqiqatçı filologiya üzrə elmlər doktoru Seyfəddin Qəniyev kimi folklorşünasın portretinin natamam cizgiləri, yaradıcı şəxsiyyətinin ayrı-ayrı həlqələridir. Əgər Seyfəddin Qəniyevin indiyə qədər folklorşünaslığımıza, ədəbiyyat tariximizə, ədəbiyyatşünaslığımıza verdiklərini daha sistemli və ardıcıl şəkildə ipə-sapa düzmüş olsaq, belə olduğu təqdirdə oradan bu böyük folklor təəssübkeşinin adekvat siması canlanacaqdır. İllər onilliklər, onilliklər qərinələri, qərinələr əsrləri əvəz edəcək, həyat dəyişəcək və yeniləşəcək, intensivləşəcəkdir.

**Seyfəddin Qəniyevin yazıb-yaratdıqları heç vaxt, heç bir halda öz dəyərdən düşməyəcəkdir. Çünki onun indiyə qədər təəssübünü çəkib qələmə aldıqları xalqımızın etnik-milli düşüncə və yaradıcılıq tərzini yetərincə uğurlu işıqlandırdığından aktuallığını qoruyub saxlayacaqdır. Çünki hər bir xalqın kimliyinə işıq tutan ən mühüm element onun folkloru, xalq yaradıcılığı dünyasıdır. Həmin dünyanın özünəməxsusluğunu əsrlərin dərinliyindən min bir əzabəziyyət hesabına arayıb-axtarıb ortaya çıxaran cəfakeş alim, araşdırıcı Seyfəddin Qəniyev doğrudan da el məsələi ilə desək "papağını boşuna gündə yandıranlardan deyil". Onun adı Azərbaycan filoloji məkanında folklorşünaslıq elmində bu gün də hörmətlə çəkilməkdədir, sabah da belə olacaq və perspektivdə də belə olacaqdır. Böyük əzəmətli gəmilər yalnız böyük sularda, dəryalarda, okeanlarda üzməlidir. Seyfəddin Qəniyevin folklor toplayıcılığının hüdudları da həmin dəryaların nəhayətsiz sahillərinə daim üz tutacaq. Etnik-milli mədəniyyətimizin mühüm hissəsi olan folklorumuza, onun aşıq yaradıcılığı qoluna böyük nüfuz və sanbal gətirəcəkdir.**



Ədalət.-2019.-18 yanvar.-S.7.